

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 152 (21.562)

17 avqust 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bert Skufsun etimadnaməsini qəbul edib.

Bert Skufs etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Azərbaycan-Belçika ikitərəfli əlaqələrinin uğurla inkişaf etdiyini qeyd edən dövlətimizin başçısı bu əlaqələrin razılıq doğurduğunu bildirib. Ölkələrimiz arasında ticarət, sərmayələr, təhsil və digər sahələrdə mövcud olan əlaqələrin daha da möhkəmləndirilməsi üçün yaxşı potensialın olduğunu deyən Prezident İlham Əliyev iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycanda səfir təyin olunmasından məmnunluğunu ifadə edən Bert Skufs fəaliyyətinin əsas məqsədinin ölkələrimiz arasında yaxşı münasibətləri davam etdirmək olacağını vurğulayıb, hər iki ölkənin maraqları daxilində iqtisadi əməkdaşlıq imkanlarını araşdırmaq istiqamətində səylərini əsirgəməyəcəyini qeyd edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 16 avqust tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən əldə etdikləri yüksək nailiyyətlərə görə və Dövlət Sərhəd Xidməti əməkdaşlarının peşə bayramı günü münasibətilə Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları və işçiləri təltif edilmişlər. Təltif olunanlar arasında "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının hərbi qulluqçusu da vardır.

**Polkovnik-leytenant Babayev Famil Qafar oğlu**

"Hərbi xidmətlərə görə"medalı ilə təltif edilmişdir.

## Mülkiyyət hüquqlarının qeydiyyatı daşınmaz əmlakın iqtisadi proseslərə cəlb olunmasını sürətləndirir

***Muxtar respublika iqtisadiyyatında müşahidə olunan müsbət tendensiyalar daşınmaz əmlak və torpaq idarəçiliyi sahəsində yeni yanaşmaları günün tələbinə çevirib. Bu baxımdan informasiya və kommunikasiya texnologiyalarının, mövcud normativ-hüquqi bazanın tətbiqi 2016-cı ilin iyul ayı ərzində Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqət mərkəzində saxlanılmış, qarşıya qoyulmuş vəzifələrin icrası uğurla davam etdirilmişdir.***

Daşınmaz əmlakın hüquqi ekspertizası və reyestrinin aparılması sahəsində görülən işlərin nəticəsi olaraq muxtar respublika üzrə 486 daşınmaz əmlak obyekti qeydiyyata alınmış, 437 texniki sənəd hazırlanmışdır. Bu dövrdə Şərur rayonunun Sərxanlı, Ordubad rayonunun Ələhi və Behrud, Şahbuz rayonunun Güney Qışlaq, Babək rayonunun Yuxarı Uzunoba, Kəngərli rayonunun Xıncab, Culfa rayonunun Əlincə, Sədərək rayonunun Sədərək kəndlərində vətəndaşlara səyyari xidmət göstərilmişdir.

Muxtar respublikada ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yaranmış 78 yeni daşınmaz əmlak obyektinə ünvanlar verilmiş və ünvan xəritələrində qeydiyyatı aparılmışdır. Naxçıvan şəhərinin 1, 2, 3 və 4 nömrəli sahə inzibati ərazi dairələrinin, Şahbuz rayonunun Aynınc, Babək rayonunun Göynük və Nəhəcir kəndlərinin inzibati ərazi dairələrinin və ərazi vahidlərinin xəritələri hazırlanmışdır. Həmçinin Babək rayonunun Yuxarı Uzunoba və Şıxmahmud bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış və torpaqların növləri üzrə uçotu aparılmışdır. Ordubad rayonunun Vənənd, Vələver, Yuxarı Əndəmic və Yuxarı Əylis bələdiyyələrinin mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron torpaq kadastr xəritələri hazırlanmış və uçotu aparılmışdır.

"Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın hazırlanması ilə əlaqədar muxtar respublikanın rayonları və Naxçıvan şəhəri üzrə əhalinin məskunlaşmasını, illər üzrə təbii və miqrasiya artımını əks etdirən xəritələr hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. Qədim Gilan şəhərinin topoqrafik planı hazırlanmış, "Dədə Qorqud yurdu Naxçıvan" tarixi və etnoqrafik atlasının hazırlanması ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tərəfindən təqdim olunmuş materialların xəritə üzərinə köçürülməsi işlərinə başlanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Naxçıvanda dayanıqlı rabitə sistemi yaradılıb

***Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli rabitə xidmətlərinin göstərilməsi sahəsində həyata keçirilən tədbirlər iyul ayında da davam etdirilmişdir.***

Ötən ay Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi ilə rayon təşkilatları arasında daxili şəbəkə qurulmuş, Naxtel LTE şəbəkəsindəki mövcud 56 baza stansiyasının hər biri 4G şəbəkəsinə qoşulmuşdur.

Əhaliyə keyfiyyətli rabitə xidmətinin göstərilməsi daim diqqət mərkəzində saxlanılır, yaşayış məntəqələrinə fiber-optik kabel xətti çəkilir. Bu iş iyul ayında da davam etdirilmiş, muxtar respublika üzrə, ümumilikdə, 11 min 235 metr fiber-optik kabel xətti çəkilmiş, 226 yeni telefon nömrəsi istismara verilmiş, 401 yeni abunəçi genişzolaqlı internetlə təmin olunmuşdur. Həmçinin bu dövrdə kompüter kursları üzrə təhsil almaq üçün 75 dinləyici olmaqla, 6 ümumi və 22 fərdi qrup yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası diqqətdə saxlanılmışdır. Belə ki, ötən ay Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi ixtisasının III kurs tələbələrinin Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində təcrübə keçmələri təmin olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Səyyari xidmət fəaliyyətini genişləndirir

*Son illər muxtar respublikada hər bir sahədə olduğu kimi, dövlət orqanları tərəfindən vətəndaşlara yerlərdə hüquqi xidmətlərin göstərilməsi istiqamətində də xeyli işlər görülüb.*

2015-ci il martın 7-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yeni yaradılan səyyari xidmət insanlara daha bir qayğının ifadəsidir. Səyyari xidmət üçün nazirliyə "Hundai" markalı avtomobil alınıb. Avtomobil xidmət sahələrinə uyğun olaraq, səyyari xidmətin göstərilməsi üçün kompüter, POS-terminal, fotoaparat, elektron məsafəölçən və digər avadanlıqlarla təchiz edilib.

Səyyari xidmət avtomobili vasitəsilə yerlərdə vətəndaşlara ümumvətəndaş pasportlarının və şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, ov silahlarının qeydiyyata alınması üzrə hüquqi xidmətlər göstərilir. Xidmət avtomobilində quraşdırılan müasir avadanlıqlar ümumvətəndaş pasportlarının, şəxsiyyət və sürücülük vəsiqələrinin yerlərdə vətəndaşlara təqdim olunmasına imkan verib.

Cari ildə də səyyari xidmət fəaliyyətini davam etdirir. Avqust ayının ötən dövrü ərzində Babək rayonunun Nehrəm, Nəhəcir, Qahab, Sirab, Kərimbəyli, Yarımca, Zeynəddin, Cəhri, Payız və Nəzərabad kəndlərində 291 şəxsiyyət vəsiqəsi, 63 sürücülük vəsiqəsi, 2 məhkumluq haqqında arayış verilib.

Avqust ayının 15-də səyyari xidmət Sədərək rayonunun Sədərək kəndində, dünən isə Heydərabad qəsəbəsində olub.

## Əhaliyə keyfiyyətli nəqliyyat xidməti göstərilir

*Muxtar respublikada yol-nəqliyyat infrastrukturu müasir standartlar səviyyəsinə çatdırılmış, beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır.*



Bu ilin iyul ayında da avtonəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi diqqət mərkəzində saxlanılmışdır. Ötən ay Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə Naxçıvandan Bakıya 3252 sərnişin, Bakıdan Naxçıvana isə 3734 sərnişin daşınmışdır. Həmçinin bu dövrdə Naxçıvan-Batumi marşrutu fəaliyyətini davam etdirmişdir.

Nazirliyin reyd komissiyası Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsi ilə birlikdə müxtəlif günlərdə reydlər keçirmiş, sərnişindaşıma ilə məşğul olan avtonəqliyyat vasitələrinin təmizliyinə, sürücülərin geyim formasına, şəhərdaxili və rayonlararası marşrutlarda hərəkət qrafikinə nəzarəti artırmışdır. Bu dövrdə sərnişindaşımanı yerinə yetirən sahibkarların və sürücülərin iştirakı ilə seminar-müşavirə də keçirilmişdir.

Muxtar respublika daxilində sərnişindaşıma xidmətinin səviyyəsi daha da yüksəldilmiş, fəaliyyətdə olan 139 marşrut xəttində 305 ədəd avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

## Məşğulluğun təmin edilməsi diqqət mərkəzindədir

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, xidmət tərəfindən cari ilin əvvəlində muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə təhlillər aparılıb, müəssisə və təşkilatlarda mövcud olan boş iş yerlərinin hər ay toplanması təmin edilib, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi məqsədilə rübdə bir dəfə olmaqla müvafiq müəssisələrdə sorğular keçirilib.***

Məlumatda bildirilir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı məqsədyönlü tədbirlər keçirilib, cari ilin ilk 6 ayı ərzində 1203 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə göndərilib. İşə göndərilənlərin 64-ü sağlamlıq imkanları məhdud şəxs, 18-i hərbi xidmətdən yeni tərxis olunan, 5-i cəzaçəkmə müəssisəsindən azad edilən, 54 nəfəri isə aztəminatlı ailələrin əmək qabiliyyətli üzvləri olub. Eyni zamanda sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən 20 nəfər işlə təmin edilib, 164 nəfər müvafiq peşə kurslarına, 68 nəfər haqqıödənilən ictimai işə cəlb olunub. Bu müddət ərzində keçirilən əmək yarmarkalarında 180 nəfərə peşə və ixtisasına uyğun işə qəbul üçün göndəriş verilib, sosial cəhətdən həssas əhali qruplarının məşğulluğunun təmin edilməsi, habelə fərdi təsərrüfatlarının inkişafı üçün iki aztəminatlı ailəyə müvafiq köməklik göstərilib, evlərdə xalça toxunuşu ənənəsi davam etdirilib.

2016-cı ilin iyul-avqust aylarında keçirilən əmək yarmarkaları adıçəkilən proqramın icrasında mühüm rol oynayıb. Belə ki, əmək yarmarkalarına qədər muxtar respublika ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda sahibkarlıq subyektlərində olan boş iş yerləri məşğulluq mərkəzləri tərəfindən müəyyənləşdirilib, yarmarkalarda işaxtaran vətəndaşlara təqdim olunub. Muxtar respublikanın kütləvi informasiya vasitələrində əmək yarmarkalarının keçirilməsi barədə əhaliyə məlumatlar verilib.

Keçirilən əmək yarmarkalarına 212 idarə, müəssisə və təşkilatdan, o cümlədən 105 özəl sektor olmaqla, vətəndaşlara 1541 boş iş yeri təqdim edilib. Boş iş yerlərinin 1277-si dövlət, 264-ü qeyri-dövlət müəssisələrinə aid olub.

Əmək yarmarkalarında 172 nəfər daimi işlə təmin edilib. İşlə təmin olunanların 101-i dövlət, 71 nəfəri isə özəl sahədə işləməyə başlayıb.

Gənclər və sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğunun təmin olunması da diqqət mərkəzində saxlanılıb və işlə təmin edilənlərdən 68 nəfəri 29 yaşadək gənclər, 4 nəfəri isə sağlamlıq imkanları məhdud olan şəxslər olub.

Dövlət proqramının icrası bundan sonra da diqqət mərkəzində saxlanılacaqdır.

**Xəbərlər şöbəsi**

# Meyvə-tərəvəz istehsalı və tədarükü artırılır

***Təbiət öz səxavətini yurdumuzdan əsirgəməmişdir. Sahib olduğumuz isti iqlim, bərəkətli torpaqlar, şirin su qaynaqları ölkəmizin hər yerində, o cümlədən Naxçıvanda hər cür meyvə-tərəvəz məhsullarının əkilib-becərilməsinə imkan verir. Naxçıvanda yetişən meyvələrin dad-tamı haqqında isə artıq ölkəmizin hər yerində və onun hüdudlarından kənarda da danışılır.***

Naxçıvanda inkişaf etdirilən meyvə-tərəvəzçilik qədim məşğuliyyət növüdür. Müxtəlif mənbələrdə hələ tarixi İpək Yolu vasitəsilə buradan digər ölkələrə meyvə, səbzə aparılması haqqında məlumatlara rast gəlinir. Ümumiyyətlə, meyvəçilik oturaq həyatın təşəkkülü olduğundan Naxçıvanda da bu sahə yaxşı inkişaf edib. Naxçıvanlı bağbanlar onlarla növdə üzüm, alma, armud, şaftalı, ərik, göycə, tut yetişdirmiş, bunları diyarın hər yerində əkib-becərmişlər. Bağçılıq, bostançılıq çətin, zəhmət tələb edən sahədir. Bəzi meyvə ağaclarının bar verməsi üçün azı on ilə qədər vaxt tələb olunur. Amma insan inadlı, inanclıdır. Əkilən hər fidan, salınan hər bağın lap əlli ildən sonra bar verəcəyini bilsə də, o, bu gözəl məşğuliyyətinə ara vermədən davam edir. Çünki ən azından ərsəyə gəlmiş ağacın meyvəsindən dərib, kölgəsində oturanlar ona rəhmət oxuyacaq.

Meyvə-tərəvəzçilik təbii iqlim şərtlərinə həssasdır. Burada istehsal-bazar amili də öz sözünü deyir. Torpaq mülkiyyətçisinin əməyinin reallaşdığı bazar burada son sözünü deyən mühüm amildir. Ona görə də meyvə-tərəvəzin yetişdirilməsi ilə yanaşı, onların daşınması, anbarlanıb satışa çıxarılması məsələləri də həmişə aktualdır. Müasir dövrdə yaradılmış nəqliyyat, anbar və ticarət infrastrukturu şəraiti bu baxımdan diqqət mərkəzindədir. Məhz buna görə də bu vacib məsələləri həll etmiş dünyanın iri meyvə-tərəvəz ixracatçıları ilboyu hər yerə məhsul göndərə bilirlər. Muxtar respublikamızda da soyuducu anbar təsərrüfatının genişləndirilməsi artıq qeyri mövsümlərdə meyvə-tərəvəz tələbatımızı xaricdən gətirilənlər hesabına deyil, öz bağlarımızın, bostanlarımızın məhsulları ilə ödəmək imkanı verir.




Naxçıvanlılara hər meyvəni bəyəndirmək çətindir. Ona görə də meyvə-tərəvəzçilik ənənələrimizi daha da inkişaf etdirmək üçün yeni bağlar salınması ilə yanaşı, toplanan məhsulun qışa saxlanılması da vacib məsələdir. Bu isə meyvə-tərəvəzçilik sahəsinin inkişafını ehtiva edən dövlət siyasətini özündə əks etdirir. Bu siyasətin əsas məqsədi isə, ilk növbədə, istehlak bazarında insanların ilboyu meyvə-tərəvəzə olan tələbatının ödənilməsi məqsədi güdür. İlin bu vaxtı bazarlarımızda bolluqdur. Hər cür yerli meyvə-tərəvəz məhsullarını çox sərfəli qiymətə almaq mümkündür. Ancaq mövsüm keçəndən sonra Naxçıvan sakinləri sudan da dadsız, genetik tərkibi qeyri-məlum, amma qiyməti "əl yandıran" idxal məhsullar almasınlar deyə, hələ 4 il əvvəl Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" muxtar respublikada meyvə və tərəvəz istehsalının inkişaf etdirilməsini, yüksək istehlak xüsusiyyətlərinə malik yeni meyvə bağlarının salınmasını, onların ixtisaslaşdırılmasını, yerli şəraitə uyğun unudulmaqda olan məhsuldar sortların bərpasını, müasir standartlara cavab verən texnologiyalar əsasında yeni meyvə və tərəvəz emalı müəssisələrinin yaradılmasını əsas məqsəd kimi müəyyənləşdirib.

Proqramın uğurlu icrası, eyni zamanda meyvə və tərəvəzçiliyin inkişafı yolu ilə kənd əhalisinin məşğulluğunun artırılması, onların maddi rifah halının yaxşılaşdırılması, mövcud torpaq sahələrindən daha səmərəli istifadə olunması sahəsində də əlavə imkanlar yaradıb. Bu istiqamətdə həyata keçirilən tədbirlərə nəzər saldıqda görürük ki, muxtar respublikanın torpaq, iqlim və relyef xüsusiyyətlərinə asan uyğunlaşan meyvə sortlarından ibarət geniş ərazilərdə tingçilik sahələri yaradılaraq 2012-2015-ci illər ərzində muxtar respublika üzrə 751 hektar ərazidə 660 minə yaxın ting əkilib. Ayrıca bu dövrdə meyvə-tərəvəz məhsulları istehsalının artırılması məqsədilə sahibkarlara güzəştli kreditlər verilib və hazırda bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilməkdədir. Nəticə isə göz qabağındadır. Naxçıvan bazarında heç vaxt belə bolluq və ucuzluq olmayıb.

Lakin bunlar son hədəf deyildir. Naxçıvanda meyvə-tərəvəz məhsullarına artan tələbatı daha dolğun şəkildə ödəmək məqsədilə muxtar respublika Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsümi məhsulların ixracına geniş imkanlar yaradır. Yeni dövlət proqramının hədəfləri daha genişdir. Bu mühüm dövlət sənədində muxtar respublikada meyvəçiliyin elmi əsaslarla genişləndirilməsi, su təminatının yaxşılaşdırılması, istehsal olunmuş məhsullara keyfiyyət nəzarətinin artırılması kimi mühüm məqsədlər qarşıya qoyulub. Meyvəçiliyin inkişafını stimullaşdırmaq məqsədilə ilk dəfə 2016-cı ildə muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində Göycə festivalı keçirilib. Cari ilin ilk yarısının nəticələri isə bu sahədəki işlərin uğurla davam etdirildiyini göstərir. 2016-cı ilin yanvar-iyun aylarında muxtar respublikamızda meyvə istehsalının həcmi bir il öncəyə nisbətən 1 faiz, tərəvəz istehsalı isə 2,7 faiz artıb. Meyvə-tərəvəzin istehsalı ilə yanaşı, Naxçıvan Muxtar Respublikasında daxili bazarın ilboyu keyfiyyətli meyvə-tərəvəzlə təmin olunması üçün yetişdirilən məhsulun tədarükü məqsədilə soyuducu anbar infrastrukturu şəbəkəsinin genişləndirilməsi də davam etdirilir. Ümumilikdə, muxtar respublika üzrə dövlət maliyyə dəstəyi və şəxsi vəsait hesabına hüquqi və fiziki şəxslər tərəfindən ümumi tutumu 12730 ton olan 22 soyuducu anbar istifadəyə verilib. Hazırda tutumu 400 ton olan 2 soyuducu anbarın yaradılması davam etdirilir.

Soyuducu anbarlardakı meyvə-tərəvəz məhsullarının istehsalçılardan qəbul edilərək ticarət şəbəkələrinə paylanılması bu sahədəki əsas çətinliklərin – mövsümlük probleminin həllinə kömək edir. Kəndlinin mövsümdə aşıb-daşan meyvəsinin bazarın qıt vaxtına qədər soyuducu anbarlarda saxlanılıb istehlakçılara çatdırılması həm əhalinin təzə meyvə-tərəvəzlə ilboyu təmininə, həm də bu sahədən maksimum gəlir əldə etməyə imkan verir. Bu da onu göstərir ki, qarşıdakı dövrdə də süfrələrimizdə meyvə-tərəvəz bol olacaq.

**Əli CABBAROV**

# "Zümrüd" Kiçik Müəssisəsi yeni dərs ilinə hazırdır

## *Vahid məktəbli formaları məhz bu müəssisədə tikilir*

***Azərbaycanda sahibkarlığın inkişafı bilavasitə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimizin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra aparılan məqsədyönlü siyasət, həyata keçirilən sistemli tədbirlər, Azərbaycanda siyasi və makroiqtisadi sabitliyə nail olunması nəticəsində sahibkarlar sinfinin formalaşması üçün həm hüquqi baza yaradıldı, həm də dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək göstərildi. "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur", – deyən ulu öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən sahibkarlığın inkişaf strategiyası Azərbaycanın hər yerində sahibkarlar ordusunun formalaşmasına stimul verdi.***

Məhz ümummilli lider Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmiz artıq dünya birliyində öz layiqli yerini tutub, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olub. İnkişaf hədəfinə doğru böyük inamla irəliləyən Azərbaycanın ötən hər ay, hər il bütün sahələrdə əldə olunan uğurlarla tarixə düşür. Naxçıvan blokada şəraitində olsa belə, bütün sahələr üzrə inkişaf etmiş dünya dövlətləri nümunəsi göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)", "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" uğurla icra olunub və bu gün "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin vaxtında və yüksək tələbkarlıqla yerinə yetirilməsi sürətlə davam etdirilir.

Bu proqramların özünə yol xəritəsi seçən sahibkarlar yeni-yeni uğurlarla, istehlakçı maraqları ilə özlərini təsdiq edirlər. Ən önəmlisi də odur ki, bu gün diyarımızda sağlam sahibkarlıq mühiti formalaşdırılıb. Bu isə hər bir iş adamını uğurlara aparır, qazanılan nailiyyətlər getdikcə artır. Qısası, bir tərəfdən bazarda yerli məhsullara qarşı istehlakçıların yüksək tələbatı, digər tərəfdən də dövlətin iş adamlarına davamlı maddi və mənəvi dəstəyi bu işdə təcrübə sahiblərini və zəhmətə qatlaşanları qol çırmayıb həvəslə işə girişməyə yönəldir. Təbii ki, hər bir sahibkar yaradılan münbit şəraitdən, göstərilən dövlət qayğısından səmərəli istifadə etdikcə, arzularını reallaşdırdıqca, yaxşı nəticələr ortaya qoyduqca dövlət də onlara dəstəyini günü-gündən artırır. Belə sahibkarlıq obyektlərindən biri də "Zümrüd" Kiçik Müəssisəsidir. Müəssisənin direktoru Etibar Hacıyev söhbət zamanı sadaladığım amilləri təsdiq etdi və dedi ki, biz elə də böyük bir iş görmürük. Yaradılan şəraitdən, dövlət qayğısından səmərəli istifadə edərək istəyirik ki, dövlətimizin bizə olan etimadını doğruldaq və muxtar respublikanın inkişafında müəyyən qədər payımız olsun.





Sahibkarın sözlərinə görə, əvvəlcə işə başlamaq, sonra kömək istəmək lazımdır. Elə bu müəssisə kimi. 1997-ci ildə 6 nəfər işçi ilə və cəmi 10-12 avadanlıqla, özü də sovet istehsalı olan avadanlıqlarla fəaliyyətə başlayan müəssisə çox lazımlı bir sahə ilə məşğul olub. Ona görə ki, o vaxt Naxçıvan əhalisinin maddi durumu o qədər də yaxşı deyildi və övladları orta məktəbdə təhsil alan valideynlər təkcə dərslik yükünün ağırlığını çəkmirdilər, həm də geyim problemi ilə üzləşirdilər. Əlbəttə, bu, bir həqiqətdir ki, dünya bərqərar olandan cəmiyyətdə hamı eyni maddi durumda olmayıb. Muxtar respublikamız blokada şəraitində yeni inkişafa qədəm qoyduğu bir vaxtda bu müəssisənin yaradılması bütün valideynlərə və uşaqlara maddi və mənəvi dəstək oldu.

"Zümrüd" Kiçik Müəssisəsi muxtar respublikada yaradılmış ilk özəl müəssisələrdən biridir. Bu müəssisənin yaradılması ilə Azərbaycanda ilk dəfə olaraq vahid məktəbli formasına keçildi.

Etibar Hacıyev deyir ki, müəssisə fəaliyyətə başlayanda yenicə müstəqillik qazanmışdıq. Hələ çətinliklərimiz, həll edilməli problemlərimiz çox idi. Çalışırdıq ki, başladığımız işin yaxşı nəticəsini görə bilək. Bu da diqqətdən yayınmadı və istehsalımızı artırmaq üçün 2010-cu ildə bizə Sahibkarlığa Kömək Fondundan 560 min manat vəsait ayrıldı.

2011-ci il sentyabrın 9-da gündəlik istehsal gücü 150 dəst kostyum olan müəssisənin yeni binası və kostyum istehsalı sahəsi istifadəyə verilib. Müəssisənin açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirak etməsi, açılış zamanı "Öz işini günün tələbləri səviyyəsində quran, qanunvericilik çərçivəsində fəaliyyət göstərən sahibkarlara bundan sonra da lazımi diqqət və qayğı göstəriləcəkdir. Məqsəd ondan ibarətdir ki, yeni iş yerləri açılsın, daxili tələbat yerli istehsal hesabına ödənilsin, sahibkarlıq fəaliyyəti daha da inkişaf etsin. Bunun müqabilində isə sahibkarlarımız istehsal etdikləri məhsulların keyfiyyətinə ciddi diqqət yetirməli, işçilərə lazımi qayğı göstərməlidir", – deməsi müəssisənin gələcək fəaliyyətinə işıq saldı.

Etibar Hacıyev o günün təəssüratına qayıdaraq bildirdi ki, Ali Məclis Sədrinin istehsal etdiyimiz məhsullara görə xoş sözlər deməsi bizi xeyli ruhlandırdı. Bundan sonra daha yaxşı işləməyə başladıq ki, göstərilən etimada layiq ola bilək. Beləcə, inkişaf yolunu tutduq. Daha yaxşı nəticələr ortaya qoyduqca, dövlətin bizə olan dəstəyi də artdı. Böyükhəcmli kreditlər verildi, müxtəlif mükafatlarla təltif olunduq.

2013-cü ildə Sahibkarlığa Kömək Fondundan müəssisəyə yenidən 165 min manat kredit ayrıldı və daha bir istehsal sahəsi – gündəlik istehsal gücü 1000 ədəd olan köynək sexi fəaliyyətə başladı. Və müəssisənin rəhbəri bir il sonra – 2015-ci ildə Naxçıvan Muxtar Respublikasında keçirilən "Ən fəal işəgötürən" müsabiqəsi üzrə ikinci yerə sahib oldu.

Bu gün "Zümrüd" Kiçik Müəssisəsinin uğurlarından xeyli söhbət açmaq olar. Hər iki sexdə, ümumilikdə, 150-yə yaxın Almaniya, Yaponiya və Türkiyə istehsalı olan ən müasir avadanlıqlar quraşdırılıb. Xammal Türkiyədən gətirilir. Keyfiyyət amili bu gün qarşıda duran əsas məsələlərdən biridir.

Hazırda qarşıdan gələn yeni tədris ili ilə əlaqədar təhsil müəssisələrindən sifarişlər qəbul edilməkdədir. Onu da qeyd edək ki, istehsal olunan məhsullar muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində, həmçinin rayon mərkəzlərindəki mağazalarda satılır. Eyni zamanda məktəbli yarmarkalarında məktəbli formaları hər il müştərilərə təqdim edilir. Qiymətlər də münasibdir.

"Zümrüd" Kiçik Müəssisəsinin Naxçıvan şəhərində və Əliabad qəsəbəsində yerləşən istehsal sexlərində istehsala, həmçinin işçilərə yaradılan hərtərəfli şərait bir daha təsdiq edir ki, bütün sahələri ilə örnək olan muxtar respublikamız hələ çox inkişafa imza atacaq. Bunu müəssisəyə nəvələrinə məktəbli forması almağa gələn Xatirə Süleymanovanın dedikləri də təsdiq etdi, balaca Ofelya və Eminin üzündəki təbəssüm də. Həmçinin müəssisədə çalışan Xatirə Nəzərəliyeva, Vəsilə Əliyeva, Aybəniz Süleymanova və digərləri də...

Onu da qeyd edək ki, müəssisə bu gün təkcə muxtar respublikanın ali və orta məktəblərinin müəllim, tələbə və şagirdləri üçün geyim formalarının istehsalı ilə məşğul olmur, həm də hüquq-mühafizə orqanlarından, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən, Naxçıvan Şəhər Yaşıllaşdırma və Sanitar Təmizlik idarələrindən də sifarişlər qəbul edir.

**Hafizə ƏLİYEVA**

# Yeni texnologiyaların tətbiqi muxtar respublikanın müasir inkişafının başlıca şərtidir

Dünya ölkələri artıq informasiya cəmiyyəti quruculuğu prosesinə qədəm qoyub. İnkişaf səviyyələrindən asılı olaraq, hər bir ölkə bu prosesdə müəyyən nailiyyətlər əldə edib. İnformasiya-kommunikasiya texnologiyaları (İKT) dövlətin davamlı və dayanıqlı inkişafının təmin edilməsi, intellektual potensialının gücləndirilməsi, biznesin irəliləməsi, korrupsiya ilə mübarizə, yoxsulluq və işsizliyin azaldılması, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Dövlət idarəçiliyi, təhsil, səhiyyə, biznes, bank işi və digər sahələrdə yeni dəyərlər yaradan İKT ictimai-iqtisadi münasibətlərin vacib tərkib hissəsinə çevrilib. İnternet mediasının inkişafı, internetdə fikir və söz azadlığının mövcudluğu, elektron qəzet və jurnalların, xarici və daxili sosial şəbəkələrin geniş yayılması İKT-nin cəmiyyətə verdiyi yeni imkanlardır. İKT-nin, o cümlədən internet iqtisadiyyatının inkişaf etdirilməsi ənənəvi iqtisadi sahələrin inkişafında da mühüm rol oynayacaqdır. Məhz internet iqtisadiyyatı yeni istifadə və iştirak mühitlərinin yaranmasına, məhsuldarlığın artırılmasına, rəqiblər üzərində strateji üstünlüyün əldə olunmasına, tərəfdaşlarla münasibətlərin möhkəmləndirilməsinə, informasiya resurslarından optimal istifadəyə və bütövlükdə, cəmiyyətin rifahının yaxşılaşdırılmasına şərait yaradır. Muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlər barədə ətraflı məlumat almaq üçün Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin direktoru Vüqar Rəsulova müraciət etdik.

***– Bu gün cəmiyyətimiz elmi ədəbiyyatlarda "elektron hazırlıq (e-Readiness") – informasiya cəmiyyətinə hazırlıq, yəni ölkənin informasiya-kommunikasiya infrastrukturunun inkişafını, elektron iqtisadiyyatını, distant təhsilini, dövlət idarəçiliyində informasiya-kommunikasiya texnologiyalarından istifadəni və İKT sahəsində dövlətin siyasətini əhatə edən meyarlarla qiymətləndirilən sosial iqtisadi inkişafın səviyyəsini qəbul etməyə hazırdırmı?***

– Maraqlı və bir o qədər də əhəmiyyətli məsələyə toxundunuz. Hazırda dünyada gedən əksər proseslərə İKT-nin birbaşa təsiri vardır ki, bu yolla cəmiyyətimiz bir çox məqsədlərə daha sürətli nail olmaq imkanı əldə edib. İnformasiya cəmiyyətini formalaşdırmaq isə, həqiqətən də, mühüm məsələlərdən biri kimi əhəmiyyətlidir. Ancaq qeyd edim ki, bu cəmiyyəti yaratmaq üçün, ilk növbədə, internet sisteminin məkanlarda aktiv olması lazımdır. Muxtar respublikada bu sahədə bir çox işlər görülüb, internet sistemi ilə əlaqədar bir sıra addımlar atılıb. İnformasiya cəmiyyəti formalaşıbmı? – bəli, formalaşıb. Artıq bir cəmiyyət mövcuddur. Düşünürəm ki, artıq muxtar respublikada qəbul olunan sərəncam və qərarlar, həyata keçirilən bir çox tədbirlər informasiya cəmiyyətinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərib. Artıq formalaşan informasiya cəmiyyətini qəbul edən müəyyən təbəqə mövcuddur.

***– Vüqar müəllim, son dövrlərdə "informasiya cəmiyyəti" anlayışından tez-tez istifadə olunur. Ancaq bu anlayış hələ də bəziləri üçün aydın deyil. Bəlkə, bu anlayışın mahiyyətini bir qədər açasınız?***

– İnformasiya cəmiyyəti anlayışı 1960-cı illərin əvvəllərində Yaponiyada sosial elmlərin tədrisində istifadə olunmağa başlayıb və artıq 50 ildən çoxdur ki, elmi-nəzəri tədqiqat obyektinə çevrilib. Cəmiyyətin inkişaf tarixində üçüncü qlobal sosial-texniki inqilab kimi qeyd olunan müasir informasiya-kommunikasiya texnologiyaları informasiyanın əldə edilməsi, emalı, saxlanması və ötürülməsi məqsədilə proqram-texniki vəsaitlərin, istehsalat proseslərinin və metodlarının məcmusudur. İnformasiya proseslərinə isə aiddir: informasiyanın axtarışı, seçimi, yaradılması, saxlanması, ötürülməsi, kodlaşdırılması, emalı və qorunması.

İnformasiya cəmiyyəti, başqa sözlə desək, cəmiyyətin informasiyalaşdırılması ölkənin intellektual potensialından səmərəli istifadə edərək hərtərəfli inkişafın təmin edilməsi, korrupsiya ilə mübarizə, yoxsulluq və işsizliyin aradan qaldırılması, cəmiyyətdə aşkarlıq və şəffaflığın bərqərar edilməsi və bütövlükdə, ictimai həyatın demokratikləşməsi deməkdir. Azərbaycanda informasiyalaşmış cəmiyyətin əsas xüsusiyyətlərinə qlobal informasiya mühitinin yaradılması, sosial və iqtisadi fəaliyyətin yeni formalarının (məsafədən təhsilalma, elektron ticarət, tele iş, elektron hökumət və sair) meydana gəlməsi, informasiya və bilik bazarının yaradılması, müxtəlif səviyyədə informasiya mübadiləsi sistemlərinin inkişafı, vətəndaş və təşkilatların istənilən məlumatı almaq, onu yaymaq və ondan istifadə etmək kimi hüquqlarının tam təmin edilməsi aiddir.

***– İKT-nin inkişaf etdirilməsi üçün görülən işlər nəticəsində ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası, sosial və iqtisadi fəaliyyətin yeni formalarının (e-hökumət, e-ticarət, distant təhsil və sair) təşəkkül tapması, informasiya və bilik bazarının yaradılması, iqtisadiyyatın müxtəlif sahələrində səmərəliliyin artırılması, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb. Bu barədə fikirləriniz oxucularımız üçün maraqlı olardı...***

– Hazırda Naxçıvan Muxtar Respublikasında İKT bir çox sahəyə tətbiq edilir. İnformasiya texnologiyalarının inkişafı prioritet sahədir. Bu baxımdan xüsusilə son zamanlar muxtar respublikada distant təhsil sahəsində də əhəmiyyətli addımlar atılıb. Belə ki, muxtar respublikanın ali, orta ixtisas, peşə və ümumtəhsil məktəblərində elektron tədrisdən istifadə təmin edilib, təhsil müəssisələrində 5 minə yaxın kompüter, 650-dən çox elektron lövhə quraşdırılıb, sürətli internetə çıxış imkanı yaradılıb, distant təhsil şəbəkəsi qurulub. Bundan başqa, sağlamlıq imkanları məhdud uşaqların da təhsilə inteqrasiyası məqsədilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi istifadəyə verilib, görmə və eşitmə qabiliyyəti məhdud uşaqlar üçün audio və elektron kitabxana yaradılıb.

Naxçıvan Muxtar Respublikasında Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri üçün tələb olunan server və digər avadanlıqlar alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisində qurulub. Hər iki sistem üçün proqram təminatı hazırlanıb. Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat Sistemi 2 terabaytlıq yaddaşa malikdir. Bu da daxil olan müraciətlərin və verilən cavabların uzun müddət arxivdə saxlanılmasına imkan yaradacaqdır. Muxtar respublikanın 76 təşkilatının internet saytında elektron müraciət bölməsi yenidən işlənib və sistemlə əlaqələndirilib. Bu da vətəndaş tərəfindən elektron hökumət portalı üzərindən göndərilən müraciətlərin eyni vaxtda elektron qeydiyyat sisteminə də daxil olmasına imkan verir. Təşkilat tərəfindən vətəndaşın müraciətinə 15 gündən gec cavab verildikdə sistem əməliyyatçını məlumatlandırır. Əməliyyatçı məlumatları digər elektron ünvanlara göndərmək, çap etmək, müqayisələr aparmaq, istənilən tarixdə göndərilən müraciətlərə yenidən baxmaq imkanına malikdir. Hər iş gününün sonunda bazaya daxil olan müraciətlər və verilən cavablar avtomatik olaraq arxivə göndərilir.

İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminin əsas və ehtiyat serverlərinin hər birinin tutumu 3 terabaytdır. Sistem lokal şəbəkə daxilində fəaliyyət göstərir. Buna görə də bütün sənədlər və yazışmalar Elektron Sənəd Dövriyyəsi Sisteminin serverində tam təhlükəsiz şəraitdə saxlanılır. Əməliyyatçı ona verilmiş şifrə vasitəsilə sistemə daxil olur. Bu zaman 30 dəqiqə ərzində kompüterdə heç bir əməliyyat aparılmadıqda sistem həmin istifadəçini avtomatik olaraq kənarlaşdırır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"da qeyd olunur: "Müasir iqtisadi şəraitdə elektron ödəniş sistemi maliyyə sabitliyinin və ümumi iqtisadi inkişafın təminatında mühüm əhəmiyyət kəsb edir. Elektron ödəniş xidmətlərinin tətbiqi təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsinə xidmət edir".

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamında deyilir: "Bu gün İKT respublikanın davamlı və dayanıqlı inkişafının təmin edilməsi, intellektual potensialının gücləndirilməsi, biznesin irəliləməsi, korrupsiya ilə mübarizə, yoxsulluq və işsizliyin azaldılması, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Dövlət idarəçiliyi, təhsil, səhiyyə, biznes, bank işi və digər sahələrdə yeni dəyərlər yaradan İKT ictimai-iqtisadi münasibətlərin vacib tərkib hissəsinə çevrilmişdir. İnternet mediasının inkişafı, internetdə fikir və söz azadlığının mövcudluğu, elektron qəzet və jurnalların, xarici və daxili sosial şəbəkələrin geniş yayılması İKT-nin cəmiyyətə verdiyi yeni imkanlardır".

Bu baxımdan da gələcəyin daha güclü təməllər üzərində qurulması üçün İKT və informasiya cəmiyyəti son dərəcə əhəmiyyətlidir. İKT-nin müxtəlif sahələrə tətbiqi üçün bu sahədə ixtisaslaşmış kadrlara ehtiyac vardır. İKT muxtar respublikada iqtisadiyyat, turizm, təhsil, biznes, alqı-satqı və digər bu kimi sahələrə yüksək təsir göstərib. İKT vasitəsilə biz virtual məkanda daha güclü təmsil olunuruq.

***– Müsahibə üçün sağ olun.***

*Bu rubrikamızda orta əsrlər dövründən başlayaraq müasir dövrümüzədək Naxçıvan torpağının yetişdirdiyi dahilərdən, məşhur şəxsiyyətlərdən söhbət açırıq. Budəfəki yazımızı şair və dəyərli din xadimlərindən sayılan Hacı Mirzə Məhəmmədəli Qərəvi Ordubadiyə həsr etdik.*

*Unutsaq, unudularıq*

## Hacı Mirzə Məhəmmədəli Qərəvi Ordubadi

Gəlin öncə onu tanıyaq: Əbül-Qasim Ordubadinin oğlu Hacı Mirzə Məhəmməd Əli Qərəvi Ordubadi hicri 1312-ci il rəcəb ayının 21-də (miladi 18 yanvar 1895-ci il) Təbriz şəhərində doğulmuşdur. Həmin dövrdə onun atası Əbül-Qasim Ordubadi müvəqqəti yaşamaq üçün Təbrizə gəlmişdi. 1898-ci ildə ailə Nəcəf şəhərinə qayıdır. Məhəmmədəli ibtidai təhsilini bitirdikdən sonra yüksək səviyyəli fiqh və üsuli-fiqh dərslərini oxumağa başlayır. Bu sahədə onun ilk müəllimi atası Əbül-Qasim Ordubadi olmuşdur. Atasının vəfatından sonra Məhəmmədəli öz zəmanəsinin ən məşhur alimlərindən sayılan Şəriət İsfahani, Mirzə Əli ağa Şirazi (Şeyx Məhəmməd Həsən Şirazinin oğlu), Şeyx Məhəmməd Hüseyn Naxçıvani Kompani və başqalarından dərs alır. O, məşhur təfsirçi Şeyx Məhəmməd Cavad Bəlağinin dərslərində daha çox iştirak edirdi. Ordubadi, təqribən, 30 nəfər məşhur alimin dilindən hədis rəvayət edirmiş. Müasirləri onun şeir və ədəbiyyatda misilsiz istedad sahibi olduğunu qeyd etmişlər. Onun şeirlərinin əksəriyyəti ərəb dilindədir, Peyğəmbərin və Əhli-beytin barəsindədir; fars dilində şeirləri də vardır.

"Məfaxiri-Azərbaycan" kitabında yazıldığına görə, Ordubadi "Əl-Ğədir" kitabının yazılmasında Əllamə Əminiyə yaxından köməklik göstərmişdir. O, "Əl-Ğədir" kitabının səlis dil və aydın üslubda qələmə alınması üçün müəllifə dəyərli məsləhətlər vermiş, kitabın redaktə prosesində fəal iştirak etmişdir. Zənnimizcə, bu cür müstəsna dəyərə malik bir əsərin yaradılmasına yardım göstərməklə Mirzə Məhəmmədəli Ordubadi öz adını tarix səhifələrinə əbədi yazdıra bilmişdir.

Ordubadi dini məzmunlu bir neçə əsərin müəllifidir. Məsələn, İmam Mehdi barəsində "Əl-Ənvarüs-satiə" kitabı, Kərbəla şəhidlərinin qanını almış Muxtarın tərcümeyi-halı, aşura gününün müsibətlərinə həsr olunmuş mərsiyələr məcmuəsi, müsəlman alimlərinin tərcümeyi-halını əhatə edən "Zəhrür-rəbiyy" kitabı, Şeyx Təntaviyə mənsub "Cəvahir" təfsirinin tənqidi və sair. Onun qələmindən çıxmış və Həzrət Əlinin Kəbədə doğulması faktını isbat edən risalə Əllamə Əmini tərəfindən yüksək dəyərləndirilmişdir.

Ordubadi dəyərli bir ədib və şair kimi ərəb dilində çoxlu şeirlər yazmışdır.

Son dərəcədə yüksək istedada malik olan Ordubadi qısa müddətdə böyük məqam sahibi olur. Ən maraqlısı isə onun ərəb dili qaydalarını mükəmməl bilməsi və bu dildə şeir yazması idi. O, bu sahədə yüksək məqama çatmış məşhur ədib və şairləri arxada qoyaraq onları heyrətə salmışdı. Ərəb ölkələrinin tarix və ədəbiyyatı, fiqh, üsul, hədis, rical, təfsir, kəlam və hikmət sahəsində misilsiz idi. Bunlardan əlavə, Ordubadi saf ruhlu, gözəl əxlaqlı, ədəbli, təqvalı və xoşxasiyyət bir insan idi. Çıxış edərkən sözlərinin cazibədarlığı və şirinliyi insanı cəzb edir, ruhuna təsir edirdi. Təvazökar alim dünyanın aldadıcı var-dövlətindən üz çevirərək pəhrizkarlıq, elm öyrənmək və şəri vəzifəsini yerinə yetirməklə məşğul olurdu. Ömrü boyu həmişə haqqı deyən və haqqı yorulmadan müdafiə edənlərdən olub. Haqq yolunda heç nədən çəkinməzdi.

Öz qüvvəsini başqalarının elmi işlərinin tənzim olunmasına sərf və onların çap olunmasına kömək etdiyindən özünün yüksək dərəcədə yazılan əsərləri üzə çıxmır. Ömrünün axırlarında ağır xəstəliyə tutulur və öz evində oturmalı olur. Amma bu vəziyyətdə də tədqiqatlarını davam etdirir. "Qurani-Kərim"ə təfsir yazmağa başlayır. Amma şiddətli xəstəlik bu işi sona çatdırmağa aman vermir.

Təkcə əsrarəngiz gözəlliyi, zəngin təbii şəraiti ilə deyil, həm də qoynunda böyüdüb boya-başa çatdırdığı görkəmli şəxsiyyətləri ilə Naxçıvan torpağı tarix səhifələrində özünəməxsus yer tutmuşdur.

**Hazırladı: Nərgiz İSMAYILOVA**

# "Yeniyetmə və gənclərin inkişafında internet və sosial şəbəkələrin rolu" mövzusunda dəyirmi masa keçirilib

Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Babək Rayon Uşaq Musiqi Məktəbində "Yeniyetmə və gənclərin inkişafında internet və sosial şəbəkələrin rolu" mövzusunda dəyirmi masa keçirilib. Mədəniyyət, təhsil, idarəetmə orqanları nümayəndələrinin iştirak etdiyi tədbiri Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının rəhbəri Gülbuta Babayeva giriş sözü ilə açıb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında aparılan ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində İKT-nin sürətli inkişafı təmin edilib. Son illər muxtar respublika ərazisində fiber-optik xətlərinin çəkilməsi, kənd yaşayış məntəqələrində yeni nəsil ATS-lərin quraşdırılması internet istifadəçilərinin sayının artmasına da səbəb olub. Hazırda muxtar respublikanın yaşayış ərazilərinin 93 faizində genişzolaqlı, 83 faizində isə simsiz internet xidmətləri göstərilir.

Bildirilib ki, uşaq və gənclərin internetin və sosial şəbəkələrin neqativ təsirindən müdafiəsi bu gün bütün dünyanı narahat edən qlobal problemdir. Və hər bir ölkə bu problemi həll etmək üçün yollar axtarır. İnternetin uşaqlar üçün təhlükəsi müasir ticarət dünyasının maraqlarından da asılı vəziyyətə gəlib. Belə ki,uşaqlar bəzi saytlar tərəfindən gələcəyin müştəriləri olaraq görülməkdə, şirkətlər öz satışlarını artırmaq üçün internetdə uşaqlara səslənən reklamlardan istifadə etməkdədir.

Sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin baş məsləhətçisi Pərvin Həsənov "İnternet; yaranması və cəmiyyətdə tutduğu yer" mövzusunda danışaraq bildirib ki, internetin insan həyatındakı rolu hər keçən gün daha da artmaqdadır. Həyatın elə bir sahəsi, elə bil nöqtəsi yoxdur ki, internet ora nüfuz etməsin. Müasir dövrdə internetin məlumat almaq, məlumat vermək, məlumatları müqayisə etmək, məlumatlardan şəxsi və ya ümumi istifadə etmək, ticarət aparmaq, münasibət qurmaq, fikir mübadiləsi aparmaq, virtual əlaqə yaratmaq və sadalamaqla qurtarmayacaq qədər çox iş görmək potensialına malikdir. Artıq istənilən məlumatlar asanlıqla, ucuz və sürətli şəkildə əldə olunur.

Dəyirmi masada iştirak edənlər internetin, sosial şəbəkələrin uşaqların təhsilinə, təlim-tərbiyəsinə, zehni və fiziki inkişafına təsir yollarından, bu sahənin faydalı və zərərli cəhətlərindən bəhs ediblər.

**Əli RZAYEV**

***Xalçaçılıq sənəti milli sərvətimizdir. Azərbaycan xalçaları zərif toxunuşu, zəngin rəng çaları, kompozisiya quruluşu, toxunma texnologiyası, keyfiyyətinə görə şöhrət taparaq dünya muzeylərinin qiymətli eksponatlarına çevrilib. Bunun nəticəsidir ki, XIII yüzilliyə aid Azərbaycan xalçası nadir toxuculuq sənət əsəri kimi Türkiyədə saxlanılıb və 1932-ci ildə Konya şəhərindəki Mövlana Muzeyinə verilib. Eləcə də 1539-cu ildə Təbrizdə toxunmuş məşhur "Şeyx Səfi" xalçası Londonun Viktoriya-Albert Muzeyində, XVII əsrin birinci yarısında Qarabağda toxunmuş "Qoca", Şirvanda toxunmuş "Şamaxı", XVI əsrdə Təbriz karxanalarında hazırlanmış "Ovçuluq" xalçaları Nyu-York şəhərindəki Metropoliten Muzeyində, 1801-ci ildə Bakının Xilə kəndində toxunmuş "Xilə-buta" çeşnili sürmeyi xalça Moskva Dövlət Tarix Muzeyində saxlanılır.***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# İlmə-ilmə yazılan xalça adlarımız



Milli dəyərlərimizin zəngin xəzinəsinə daxil olan xalçaçılıq sənətində min illərin sənət dünyası, incəsənət tariximiz, boyaqçılıq, toxuculuq, naxışvurma mədəniyyətimizin ilmə-ilmə yazılan tarixi yaşayır. Xalqımızın mədəni irsi, ictimai-siyasi və təsərrüfat həyatı, adət-ənənəsi, nənələrimizin bədii təfəkkür dünyası, fikir və düşüncələri xalçalarda əksini tapıb.

Azərbaycan xalçaları növünə, ilmə sıxlığına, keyfiyyətinə görə qiymətləndirilib, naxışına, kompozisiyasına, rəng çalarına, toxunduğu yerə görə xalçalara ad verilib. Bu baxımdan xalçalar xüsusi adı ilə tanınır, toxunma texnikası və naxış əlamətinə görə qruplara ayrılır. İndiyə qədər Azərbaycan xalça sənəti ilə bağlı çox uğurlu və dəyərli tədqiqat işləri aparılıb, bu sahəyə dair monoqrafiya və kitablar yazılıb, xalçaçılıq yeni inkişaf mərhələsinə qədəm qoyub. Bakıda, Naxçıvanda və respublikamızın digər bölgələrində xalça muzeyləri yaradılıb. Ancaq xalça adlarının formalaşma yolları, leksik-semantik mənaları, qrammatik xüsusiyyətləri, etimologiyası haqqında əsaslı fikir söylənilməyib.

AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırovun tədqiqatlarında bununla bağlı maraqlı elmi nəticələrə rast gəlirik. Alim yazırdı ki, Azərbaycan xalçaçılıq məktəbində Naxçıvan qrupunun xüsusi yeri vardır. Bu qrupa daxil olan xalçalar zəngin naxış tərtibatı, çoxsaylı rəng çalarları, milli ornamenti, tarixi-etnoqrafik elementləri, bədii, elmi əhəmiyyəti ilə diqqəti cəlb edir. Naxçıvanda qədim zamanlardan heyvandarlığın inkişafı ilə əlaqədar yun istehsalı mühüm yer tutub, toxuculuq sənəti inkişaf etdirilib, təbii otlar və bitkilərlə iplər boyanıb, qış mövsümündə hər ailədə xalça toxunub.

### *Etnonim mənşəli xalça adları*

Mənbələrin məlumatına görə, xalça toxumaq üçün hər tayfanın, qəbilənin özünəməxsus naxışları, rəng və rəng çaları olub. Ustalar naxışları və rəngləri məharətlə seçir, nəslin ipboyama sirlərini gizli saxlayır, nəsildən-nəslə keçirirdilər. Tayfaya məxsus xalçalar nəslin və tirənin adı ilə adlandırılırdı. Odur ki, qədim dövrlərdən etnonim mənşəli xalça adları Azərbaycanda geniş yayılıb.

"Billici". Quba qrupuna daxil olan bu xalça adı Kəngərlilərin "Billici" tayfa adı əsasında yaranıb. Naxçıvan ərazisi Billici tayfasının əsas yaşayış yerlərindən biri olub. Tayfaya məxsus ailələr Qarabağ zonasında da yaşayıblar. Əsasən, heyvandarlıqla məşğul olan tayfaya məxsus ailələr toxuduqları xalçaları tayfa adı ilə adlandırıblar.

"Əlixanlı". AMEA-nın müxbir üzvü Adil Bağırov belə qənaətə gəlirdi ki, Azərbaycanın əksər ərazilərinə yayılmış "Əlixanlı" tayfa adı Kəngərlilərin əsas qollarından biridir. Ola bilsin ki, vaxtilə Naxçıvanda Əlixanlı tayfasına məxsus ailələr yaşayıb və "Əlixanlı" xalçası da bu tayfa adı əsasında yaranıb.

"Qayıq". L.Kərimov yazırdı ki, bu xalça adı oğuzların tayfa adı ilə bağlı yaranıb. Adil Bağırov isə ehtimal edirdi ki, xalça adı oğuzların Qayı qolunun adını özündə yaşadır. Xalçaçılıq sənətinə yüksək qiymət verən Qayı tayfasına məxsus ailələr Naxçıvan ərazisində yaşayıblar. Bu faktı bölgədə Qayı tayfasının adı əsasında yaranan toponimlər də təsdiqləyə bilər.

### *Toponim mənşəli xalça adları*

Toponim mənşəli xalça adlarını da tədqiqata cəlb edən Adil Bağırov yazırdı ki, Azərbaycan, o cümlədən Naxçıvanda toxunan xalçaların xeyli hissəsi istehsal olunduğu şəhərin və kəndin adı ilə adlandırılıb. Sənətşünas Rasim Əfəndiyə görə, Azərbaycan xalçaları istehsal olunduğu yerin bədii ənənəsindən, xammalından (yun, ipək, pambıq və sair) asılı olaraq müxtəlif kompozisiyalara, bəzəklərə malik olub, müxtəlif üsullarla toxunub. Bu baxımdan Naxçıvanda toxunan "Naxçıvan", "Köhnə Naxçıvan", "Köhnə Ordubad", "Ordubad", "Kolanı naxışı" və sair xalçalar diqqəti cəlb edir.

### *Kompozisiyasına görə ad verilən xalçalar*

Adil Bağırovun kompozisiyasına görə ad verilən xalçalarla bağlı fikirləri də maraqlıdır. Onun tədqiqatlarında oxuyuruq: Naxçıvan xalçaları zəngin və mürəkkəb kompozisiya quruluşuna malikdir. Tədqiqatçı Rasim Əfəndinin bununla bağlı maraqlı qənaəti var: "Azərbaycan xalçaları kompozisiya cəhətdən müxtəlifdir. Adətən, xalçalardan harada və hansı məqsəd üçün istifadə ediləcəyindən asılı olaraq, onun ümumi kompozisiyası, ölçüsü, bəzəkləri və hətta rəngi də dəyişir. Xalçaların üzərində insan, heyvan rəsmləri, gülçiçək naxışları ilə yanaşı, əsl mənada, real səpkidə toxunmuş süjetli kompozisiyalara da rast gəlirik".

Naxçıvanda toxunan xalçaların kompozisiyası müxtəlif formalı elementlərdən – ara sahə və yelənden ibarət olur, xalçalara bu əlamətinə görə ad verilir. Məsələn, "Gül gəbə"nin kompozisiyasının əsas hissəsini gül təsvirləri təşkil etdiyi üçün belə adlandırılıb. Şərur, Şahbuz, Culfa və Ordubad rayonlarında toxunan "Qara göl" xalçasına ara sahədə qara rəng çalarlı göl salındığı üçün xalçaya belə ad verilib. XIX və XX əsrlərdə Naxçıvan ərazisində toxunan xalça növlərindən biri "Nəlbəki gül" adlanır. Sənətşünaslıq ədəbiyyatında çox vaxt "Minə xani" adı ilə tanınan və Şərq ölkələrinin xalçaçılıq sənətində geniş yayılmış bu çeşninin orta gölü başdan-başa nəlbəkiyə bənzəyən irihəcmli çiçəklər, xüsusilə zanbaq çiçəyi dizümü ilə bəzədilib tərtibləndiyi üçün xalçaya belə ad verilib.

"Bağçada güllər" adlı xalçalar XIX əsrin II yarısından, əsasən, Şuşada, sonralar Qarabağın digər xalçaçılıq məntəqələrində, o cümlədən Naxçıvan bölgəsində toxunub. Əvvəlcə bu kompozisiya ilə toxunan xalçalar "Gül yaylıq", yaxud "Güllü yaylıq" adı ilə tanınıb. Xalçada müxtəlif ornamentli çiçək təsvirləri olduğu üçün ona belə ad verilib. Bu fakt "Saxsıda güllər" və "Bulud" xalçaları üçün də xarakterikdir.

"Balıq" Naxçıvan ərazisində toxunan xovlu xalça adıdır. Təbriz qrupuna daxil olan "Əfşan" kompozisiyası əsasında yaradılmış xalçanın əsas elementlərindən olan yarpaqları balığa bənzədiyi üçün ona "Balıq" adı verilib.

"Aynalı" da Naxçıvan ərazisində toxunan xovlu xalça adıdır. Belə xalçaya "Güzgülü" xalça da deyirlər. Xalçaya onun ara sahələrində güzgüyəbənzər medalyonların (fiqurların) salınması ilə əlaqədar ad verilib.

### *Naxışına görə ad verilən xalçalar*

Bununla bağlı Adil Bağırov apardığı tədqiqatlarda belə nəticəyə gəlib: Dilimizdə xalçaçılıq leksikasının öyrənilməsində naxış adlarının əhəmiyyəti böyükdür. Xalçalarda hər bir naxışın öz yeri və tutumu vardır. Bu naxışlar formasına görə müəyyən məzmun daşıyır, xalçanın ümumi kompozisiyasını tamamlayır. Belə naxışları oxumaq, ilmələrlə köçürülən fikri duymaq, incəliyi seçmək, naxışların semantikasını dərk etmək insandan böyük istedad tələb edir.

"Butalı". Naxçıvan bölgəsində xalçaları xarakterizə edən naxışlar içərisində buta ornamenti xüsusi yer tutur. Xalça toxunuşunda "şabalıd-buta", "bala-buta", "lələk-buta", "küsülü-buta", "qotazlı-buta", "badam-buta" kimi buta elementlərindən geniş istifadə olunur.

Naxçıvan ərazisində toxunan xovsuz xalçalara, əsasən, palaz, cecim, şəddə, vərni və zili növləri daxildir. Mənbələrdə şəddə və vərni istehsalının Naxçıvanda meydana gəldiyi güman edilir. Üzərində atlıların və dəvələrin növbələşərək cərgə ilə düzülməsi, sarvan və çullarla bəzədilmiş dəvə karvanı süjetləri daim dövr edən əbədi həyatın, ömür karvanının simvolu olub.

Xalq toxuma növlərindən olan şaquli istiqamətli zolaqlarla bəzədilmiş cecim xovsuz xalçalarının əsas istehsal mərkəzi tarixən Ordubad olub. Əsasən, ipək liflərdən toxunan bu xalçalar ağ, yaşıl, qırmızı, sarı, mavi və sair rəngli zolaqların növbələşməsi ilə bəzədilərək zəriflik baxımından qumaş təsəvvürü yaradıb.

*Milli dəyərlərimizin qiymətli xəzinəsi olan xalçaçılıq sənəti və xalça adlarının öyrənilməsi dilin leksik fondunun zənginləşdirilməsi sahəsində çox böyük tarixi və elmi əhəmiyyət kəsb edir.*

**Hazırladı: Muxtar MƏMMƏDOV**

## Məzunlara diplomlar təqdim edilib

***Naxçıvan Dövlət Texniki Kollecini bitirən məzunlara diplomların təqdimat mərasimi keçirilib.***



Diplomlar təqdim edilməzdən əvvəl Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Seymur Xudanov çıxış edərək məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar. Qeyd olunub ki, kollecin ixtisaslı kadrlar yetişdirməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamının böyük rolu var. Həmin sərəncama əsasən, kollecin tələbələri nəzəri biliklərini müəyyən müəssisələrdə təcrübədə sınayıblar ki, bu da onlarda qazandıqları biliyin əyani şəkildə möhkəmlənməsinə gətirib çıxarıb.

2016-cı ildə Naxçıvan Dövlət Texniki Kollecindən 6 ixtisas üzrə, ümumilikdə, 98 məzun olub. Onlardan 12 nəfəri kolleci fərqlənmə diplomu ilə başa vurub.

Məzunlardan Sərxan Həsənli bildirib ki, kolleci bu il başa vurmağına baxmayaraq, artıq Ordubad şəhərindəki Texniki Peşə və Sürücülük Məktəbində işləyir. Eyni zamanda builki qəbul imtahanında topladığı balla Gəncə Aqrar Universitetinin Mühasibatlıq ixtisasına qəbul olunub.

Mühasibat uçotu ixtisasından məzun olan Günel İsmayılova kollecin müəllimlərinə minnətdarlığını ifadə edib.

Qeyd edək ki, Yol hərəkətinin təşkili və Nəqliyyat vasitələrinin texniki istismarı ixtisaslarının məzunlarına diploma birgə sürücülük şəhadətnamələri də təqdim olunub.

**Fatma BABAYEVA**

## Kənd turizminin inkişafı istiqamətində keçirilən tədbirlər davam etdirilir

***Bu il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikada turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilmiş müşavirədə Naxçıvan zəngin turizm ehtiyatlarından səmərəli istifadə olunması və burada turizmin mümkün növləri üzrə geniş reklam-təbliğat işləri aparılması tapşırığı verilib.***

Bu istiqamətdə görülmüş işlərlə əlaqədar Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyindən aldığımız məlumata əsasən, muxtar respublikamızın geniş turizm potensialını əks etdirən elektron resursların yaradılması istiqamətində işlər davam etdirilir. Ötən müddət ərzində Naxçıvan Turizm İnformasiya Mərkəzinin saytı yenilənib, muxtar respublikamızın tarixi, təbiəti, onun şəhər və rayonları, burada inkişaf etdirilən turizm növləri, mövcud turizm marşrutları, turistləri maraqlandıran yerlər, onlara işgüzar xidmətlər təklif edən müəssisələr haqqında məlumatlar və foto-qalereya yerləşdirilib.

Mərkəzin saytında kənd turizmi ilə bağlı məlumatlar maraq doğurur. Belə ki, muxtar respublikamızda kənd turizminin inkişafı məqsədilə ecazkar kənd həyatının və yeniləşdirilmiş kənd infrastrukturunun imkanlarından istifadəyə üstünlük verilir.

Nazirlikdən aldığımız məlumatda kənd turizminin inkişafı məqsədilə aparılan maarifləndirmə tədbirlərinin faydalı olduğu bildirilir. Artıq muxtar respublikamızda bu tipli kənd evlərində ölkəmizin digər yerlərindən gəlmiş qonaqlar qalır və istirahət edirlər. Belə ki, mərkəzin saytında Şərur, Ordubad, Culfa, Şahbuz, Babək rayonlarındakı çox sayda fərdi kənd evinin fotoşəkilləri, habelə onların sahiblərinin adları, ünvanları və telefon nömrələri yerləşdirilib.

Qeyd edək ki, Naxçıvan Turizm İnformasiya Mərkəzinin saytındakı bütün bu məlumatlarla ingilis dilində də tanış olmaq mümkündür.

**Ə.CABBAROV**

## Üzgüçülük üzrə şəhər birinciliyi keçirilib



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə 2001 və 2003-cü illər təvəllüdlü qızlar arasında keçirilən üzgüçülük üzrə Naxçıvan şəhər birinciliyinə yekun vurulub. Yarışın keçirilməsində məqsəd yay tətili günlərində məktəblilərin asudə vaxtlarını səmərəli təşkil etmək və onları sağlam həyat tərzinə uyğunlaşdırmaq olub. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin birgə təşkil etdiyi birincilik üzgüçülüyün sərbəst üsulu üzrə keçirilib. 25 metr məsafədə keçirilən yarışda 2 yaş qrupunda 30-a yaxın idmançı mübarizə aparıb.

Yarışın yekununa əsasən, 2001-ci il təvəllüdlü idmançılar arasında Esmiralda Həsənzadə, Yasəmən Orucova, Səma Nəbiyeva, 2003-cü il təvəllüdlü idmançılar arasında isə Tahirə Həsənzadə, Nübar Qənbərova, Aysel Hüseynova müvafiq olaraq I, II və III yerlərə layiq görülüblər.

Sonda hər yaş qrupunda yer tutan və fərqlənən idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplom və fəxri fərmanları təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Məsul katib: Muxtar Məmmədov

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 621